**KAMRAN İMANOV**

# BİLİK VƏ İNNOVASİYA İQTİSADİYYATINA ƏQLİ MÜLKİYYƏTİN DƏSTƏYİ

**Bakı – 2018**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 5 iyun 2018-ci il tarixində ÜƏMT-nın Baş direktoru Dr. Frensis Qarrinin Azərbaycana rəsmi səfəri çərçivəsində əqli mülkiyyət sahəsinin, universitetlərin və elmi-akademik dairələrin nümayəndələri ilə görüş və innovativ iqtisadiyyata əqli mülkiyyətin dəstəyi mövzusunda keçirilmiş **"Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi"** adlı beynəlxalq konfrans və **"Qeyri-maddi aktivlər və qlobal dəyər zəncirləri: İqtisadiyyat innovasiyanın faydalarından necə yararlana bilər?"** adlı birgə regional seminarda etdiyi çıxışı əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2018**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

## Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi

**Hörmətli xanımlar və cənablar, tədbirdə iştirak edən xarici qonaqlar və ölkəmizin rəsmi şəxsləri!**

**Əziz doktor Frensis Qarri, onu müşahidə edən dəyərli ÜƏMT-nın nümayəndələri!**

Sizi Bakıda, Azərbaycanın paytaxtında, möhtəşəm Heydər Əliyev Mərkəzində salamlayırıq və «Xoş gəlmisiniz» deyirik.

ÜƏMT-nın Baş direktoru, doktor F.Qarrinin Azərbaycana səfərini əhəmiyyətli hadisə kimi qəbul edərək, hökumət proqramına uyğun olaraq, yüksək səviyyəli görüşlər və vacib sənədlərin imzalanmasını nəzərdə tuturuq. Azərbaycanın dostu, ÜƏMT ilə Azərbaycan əlaqələrinin nəzərə çarpan dərəcədə genişlənməsində danılmaz rolu olan, əqli mülkiyyət sahəsinin ən nüfuzlu peşəkarlarından, alimlərindən sayılan doktor F.Qarrinin birgə keçirilən “Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi” adlı beynəlxalq konfrans-sərgi və “Qeyri-maddi aktivlər və qlobal dəyər zəncirləri: İqtisadiyyat innovasiyanın faydalarından necə yararlana bilər?” adlı regional seminarın iştirakçılarının qarşısında çıxışını səbirsizliklə gözləyirik.

Biz cənab F.Qarrinin «gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diqtə ediləcəyi və onu idarə etməsi qaçılmazdır» - məşhur fikrini xüsusi qeyd etmək istərdik. Bununla da texnologiyaların əqli mülkiyyətin mövcud landşaftına kardinal təsirini və öz növbəsində əqli mülkiyyətin buna qarşı çıxmamasını, əksinə, ona uyğunlaşmasını vurğulayırıq. Bu da cənab F.Qarrinin öncədən gördüyü əqli mülkiyyətin gələcək təkamülünün konturlarını müəyyənləşdirir. Məhz bu səbəblərdən F.Qarrinin «Əqli mülkiyyətin rolunun yenidən dərk edilməsi» və «WIPO Magazine» jurnalındakı fikirlərinə qoşuluruq və dəstəkləyirik.

Hörmətli dostlar!

Əqli mülkiyyətin dəyişmiş rolu onun fəaliyyətinin yeni konteksti və ona münasibətdə bizim düşüncə tərzimizin dəyişməsi Azərbaycan üçün çox aktualdır.

Çünki Azərbaycan yeni iqtisadi siyasətinin mühüm qolu – innovativ inkişafa qədəm qoyur. Qeyri-neft sektorunu inkişaf etdirən, diversifikasiyanı uğurla aparan və «Made in Azerbaijan» brendini təşviq edən dövlətimiz qısa müddətdə böhran vəziyyəti arxada qoyaraq, iqtisadi artımlı dinamika ilə müşahidə olunur, qeyri-neft sektorunda 2018-ci ilin 4 ayında 11%

irəliləyiş mövcuddur və mötəbər Dünya İqtisadi Forumunun məlumatına əsasən, rəqabətqabiliyyətliliyə görə dünyada bir sıra inkişaf etmiş ölkələri üstələyərək, 35-ci yeri tutur.

Yaşadığımız «biliklər cəmiyyətində», texnologiyaların sıçrayışı dövründə və rəqəmsal innovasiyaların «rəqəmsal imperativ» zamanında innovativ inkişaf tədqiqatların nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və əqli mülkiyyətin yaratdığı insan kapitalının ekosistemidir.

Dövlət başçımızın, cənab İlham Əliyevin sözləri ilə desək, «müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir».

Qarşımızda duran vəzifələri də cənab Prezident İ.Əliyevin Davos İqtisadi Forumunda vurğuladığı kimi, "gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir".

Bu yolla irəliləyən Azərbaycan 2009-cu ildən başlayaraq, yuxarı-orta gəlirli ölkələr sırasındadır. Davos İqtisadi Forumunun «İnklüziv inkişaf indeksi – 2018»-ə

əsasən, ölkəmiz inkişaf edən ölkələr arasında 3-cü yeri tutur.

Ölkə miqyasında aparılan islahatlar əqli mülkiyyət sahəsinə öz müsbət təsirini göstərir. Belə ki, Rəqabət-qabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstəricisi üzrə Azərbaycan 37-ci yeri tutur. Bununla da Azərbaycan 2016-2017-ci illərlə müqayisədə "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyini möhkəmləndirmişdir.

Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı 5%-i ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-30% aşağı düşmüşdür.

Hörmətli yığıncaq iştirakçıları!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu xarici siyasəti və dəstəyi nəticəsində Azərbaycan əqli mülkiyyət sahəsində fəal beynəlxalq əməkdaşlıq aparır, müəlliflik və oxşar hüquqlar sahəsində 6, sənaye mülkiyyətinə aid 11 beynəlxalq çoxtərəfli konvensiya və sazişlərdə iştirak edir.

Hal-hazırda ÜƏMT-nın müəlliflik hüququna aid 2 yeni müqaviləsinə – Mərakeş və Pekin müqavilələrinə qoşulma prosesi gedir, həmçinin sənaye mülkiyyəti ilə bağlı 3 sazişə qoşulma planlaşdırılır.

Azərbaycan ÜƏMT-nın rəhbər orqanlarında, o cümlədən Koordinasiya Komitəsində, Proqram və Büdcə Komitəsində təmsil olunur. Azərbaycanın nümayəndəsi (K.İmanov) "ÜƏMT-nın Müəlliflik hüququna dair Müqaviləsi"nin Assambleyasının vitse-prezidenti seçilmişdir.

ÜƏMT ilə əməkdaşlığın nəticəsi olaraq, 2006-cı ildə Azərbaycan Respublikası hökuməti və ÜƏMT arasında Əməkdaşlıq Proqramı, 2014-cü ildə Azərbaycan Respublikası hökuməti və ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu və hal-hazırda yenilənmiş Memorandum imzalanır.

Hazırda ölkəmizdə Müəllif Hüquqları Agentliyi, Təhsil Nazirliyi və ÜƏMT-nın birgə hazırladıqları **"Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə"** həyata keçirilir. Layihə ölkəmizdə elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmə-

rəsinin artırılması məqsədlərinə xidmət edir. Bununla bağlı 2017-ci ildə Birgə Bəyannamə imzalanmışdır. Qeyd olunan məsələlərə aid 2016-2017-ci illərdə ÜƏMT ilə birgə əməkdaşıqda 3 beynəlxalq tədbir keçirilmiş, elm ocaqlarında əqli mülkiyyət siyasəti ilə bağlı tanınmış beynəlxalq ekspertlər tərəfindən yardım göstərilmiş, mütəxəssislər hazırlığı aparılmışdır. Buradakı sərgidə əməkdaşlığın bəhrəsi kimi start-apların və spinautların fəaliyyətlərinin nəticələri nümayiş edilir.

Dövlət başçısının səyləri nəticəsində Azərbaycanın əqli mülkiyyətə aid zəngin milli qanunvericilik bazası mövcuddur. Buraya bilavasitə əqli mülkiyyəti qoruyan 8 qanun və məcəllələrin müvafiq müddəaları, əqli mülkiyyət hüquqlarını dolayısı yolla qoruyan 2 qanun və əqli mülkiyyət hüquqlarının qorunmasına istinad olunan 12 qanun daxildir. MDB məkanında analoqu olmayan “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə” və Avropada ilk olan “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması” haqqında Qanunlar xüsusilə qeyd edilməlidir.

Dövlət başçısının təsdiq etdiyi “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında əqli mülkiy-

yət prioritet istiqamət kimi qəbul edilmiş və sahənin inkişafı ilə bağlı 8 tədbir daxil edilmişdir.

Dövlət başçısının apardığı institusional islahatlara uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır.

Əqli Mülkiyyət Agentliyinin qarşısında duran vəzifələri nə cür görürük?

Qarşıda duran vəzifələr dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılır və əqli mülkiyyətin bu siyasətin təsirinə və innovativ inkişafa adekvat xidmət edilməsindədir. Həmin vəzifələrin icrası üç amil nəzərə alınmaqla, həyata keçirilir:

- ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində 3.0 (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, b-urada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çevrilməsi;
- KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, burada əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması;

- əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi.

Qeyd olunanlarla bağlı bir sıra tədbirlər həyata keçirilməlidir, o cümlədən:

- Azərbaycanın uzunmüddətli Əqli mülkiyyət Strategiyasının hazırlanması;
- İxtiraçılara dəstək məqsədilə beynəlxalq patent qeydiyyatı PCT sisteminin təşviqi və dövlət tərəfindən xərclərin bir qisminin ödənilməsi, həmçinin patent alınmasını sadələşdirən Patent hüququ Müqaviləsinə (PLT) qoşulması və Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzinin yaradılması;
- Universitetlər, elmi-tədqiqat institutlarında və KOS subyektlərində IP ofislərin yaradılması, onların texnologiyaların kommersiyalaşma ofislərinə (TKO) çevrilməsi;
- Elm və sənaye arasında bağlantı, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün Texnologiyaların transfer Mərkəzləri və Əqli mülkiyyət hüquqlarının Kommersiyalaşdı-

rılması Mərkəzlərinin, o cümlədən Əqli Mülkiyyət Agentliyi nəzdində yaradılması;

- "Made in Azerbaijan" brendinin təşviqi, "Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid Sazişi" çərçivəsində qorunan yerli əmtəə nişanlarının xərclərinin qismən dövlət hesabına ödənilməsi və kütləvi istehsal olunan və fərdi toxunan xalçalarımız üzərində Azərbaycana aid loqonun ilmələrlə toxunmasına dəstək verilməsi və qeydiyyata alınması;
- Rəqəmli şəbəkələrdə əqli mülkiyyət hüququ ilə qorunan obyektlərin istifadə edilməsinin idarəetmə sisteminin tətbiqi.

Sözümün sonunda ÜƏMT-ə, şəxsən cənab F.Qarriyə, Avrasiya Patent Təşkilatına (xanım Saule Tlevlessovaya) keçirilən konfranslara dəstəklərinə görə təşəkkürümü bildirirəm, iştirakçılara isə uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.